# 28 May Respublika Günüdür



Doğma, canım-varlığım qədər
sevdiyim Azərbaycanım
mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 100 (21.001)

28 may 2014-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik

## Rəsmi xronika

Mayın 27-də "Buta" sarayında Azərbaycanın milli bayramı – Respublika Günü münasibətilə rəsmi qəbul keçirilmişdir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva rəsmi qəbulda iştirak etmişlər.

Salona toplaşanlar dövlətimizin başçısını hərarətlə qarşıladılar.

Azərbaycanın Dövlət himni səsləndi.

Prezident İlham Əliyev rəsmi qəbulda nitq söylədi.

Sonra dövlət mükafatlarının təqdim edilməsi mərasimi oldu.

Daha sonra Azərbaycanın incəsənət ustaları konsert proqramı ilə çıxış etdilər.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin şərəfinə paytaxtın "İstiqlaliyyət" küçəsində ucaldılmış abidəni Respublika Günü münasibətilə mayın 27-də ziyarət etmişdir.

Abidənin ətrafında fəxri qarovul dəstəsi düzülmüşdü.

Dövlətimizin başçısı abidənin önünə əklil qoydu.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.



## Naxçıvan Muxtar Respublikası Ali Məclisində görüş



Mayın 27-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov İran İslam Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Möhsün Pakayin ilə görüşmüşdür.

Qonağı salamlayan Ali Məclisin Sədri onu Naxçıvan Muxtar Respublikasında görməyindən məmnunluğunu ifadə etmişdir.

Respublika Günü münasibətilə Ali Məclisin Sədrinə təbriklərini çatdıran səfir Möhsün Pakayin Azərbaycanın və onun Naxçıvan Muxtar Respublikasının inkişafının məmnunluq doğurduğunu bildirmişdir. Qonaq hər iki ölkə arasında həyata keçirilən yüksək səviyyəli qarşılıqlı səfərlərin əlaqələrin inkişafına töhfə verdiyini vurğulamışdır.

Ali Məclisin Sədri ölkələrimiz arasında həm siyasi, həm də iqtisadi sahədə əlaqələrin mövcud olduğunu diqqətə çatdırmış, bu əlaqələrin inkişafında Naxçıvan Muxtar Respublikasının mühüm əhəmiyyət daşıdığını bildirmişdir. Ali Məclisin Sədri ikitərəfli münasibətlərin inkişafı istiqamətində bundan sonra da qarşılıqlı səylərin göstəriləcəyinə inamını ifadə etmiş, səfirə işlərində uğurlar arzulamışdır.

Görüşdə əlaqələrin hazırkı vəziyyəti və gələcək inkişafı ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.

İran İslam Respublikasının Naxçıvandakı Baş konsulu Məhəmmədtağı Məhəmmədəli görüşdə iştirak etmişdir.

**Naxçıvan Muxtar Respublikası
Ali Məclisinin mətbuat xidməti**

## "Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk demokratik respublika" mövzusunda elmi-praktik konfrans



*"Şərqdə ilk demokratik dövlət quruluşunu yaratmış Azərbaycan Xalq Cümhuriyyəti istiqlaliyyətimizi elan edərək xalqımızın müstəqillik əzmini nümayiş etdirmişdir". Bu fikir dünən AMEA Naxçıvan Bölməsində "Azərbaycan Xalq Cümhuriyyəti – Şərqdə ilk demokratik respublika" mövzusunda keçirilmiş elmi-praktik konfransda səsləndirilmişdir.*

Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev qeyd etmişdir ki, 1918-ci il mayın 28-də Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması tariximizə böyük hadisə kimi daxil olmuşdur. Müstəqil, azad, demokratik respublika qurulmasını qarşısına məqsəd qoyan Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 aylıq fəaliyyəti dövründə xalqımızın milli mənlik şüurunu özünə qaytarmış, onun öz müqəddəratını təyin etməyə qadir olduğunu nümayiş etdirmişdir. 1918-ci il mayın 28-də Tiflisdə qəbul edilmiş "İstiqlal Bəyannaməsi"ndən də göründüyü kimi, bu möhtəşəm tarixi hadisə xalqımızın müstəqillik amalını daha da gücləndirmişdir. XX əsrin sonunda yenidən müstəqilliyinə qovuşan Azərbaycan öz suverenliyini qoruyub saxlamağı bacarmışdır. Ümummilli lider Heydər Əliyev Azərbaycan dövlətçiliyinin qorunması üçün qətiyyətli tədbirlər görmüş, ölkədə davamlı ictimai-siyasi sabitliyi bərqərar etmişdir. Ulu öndər Heydər Əliyevin şah əsəri olan müasir müstəqil Azərbaycan dövləti sürətli inkişaf yoluna qədəm qoymuşdur.

Bildirilmişdir ki, Şərqdə ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti XX əsrin sonunda yenidən istiqlaliyyətinə qovuşan müstəqil Azərbaycanın şərəfli tarixində böyük mərhələnin başlanğıcını qoymuşdur. Xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yarandığı bu şərəfli tarixi – 28 Mayı "Respublika Günü" kimi qeyd edir.

Konfransda AMEA Naxçıvan Bölməsinin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun direktor müavini, AMEA-nın müxbir üzvü Hacı Qadir Qədirzadə "Azərbaycan Xalq Cümhuriyyəti və onun Azərbaycan dövlətçilik tarixində yeri", həmin institutun böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Zeynəb Quliyeva "Azərbaycan Xalq Cümhuriyyətinin yaradıcıları", elmi işçisi Elnur Kəlbizadə "Azərbaycan Xalq Cümhuriyyəti Şərqdə ilk parlamentli respublika kimi", böyük elmi işçisi, tarix üzrə fəlsəfə doktoru Musa Quliyev "Müstəqil Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisidir" mövzularında elmi məruzələr etmişlər.

Məruzələrdə vurğulanmışdır ki, yarandığı gündən bəri demokratik idarəçilik prinsiplərinin bərqərar olması istiqamətində mühüm addımlar atan Azərbaycan Xalq Cümhuriyyəti həm də bütün Şərqin, müsəlman və türk dünyasının tarixinə ilk parlamentli respublika kimi düşmüşdür. Naxçıvanlıların, zəngəzurluların ermən təcavüzünə qarşı əzmkar mübarizəsi dəfələrlə parlamentdə təqdir edilmiş və bu bölgələrlə bağlı qızğın müzakirələr aparılmışdır. Bütün bu müzakirələrlə, qəbul edilən qanunlarla tanış olduqca bir daha qürur duyursan ki, XX əsrin əvvəllərində qurulan Azərbaycan Xalq Cümhuriyyəti o dövrün ən demokratik quruluşlarından biri olmuşdur. Tariximizin birinci respublikasının dövründə əsası qoyulan ənənələrin varisliyi müasir müstəqil Azərbaycan Respublikasının fəaliyyəti ilə tam təmin olunur.

Konfransa AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev yekun vurmuşdur. Elmi tədbirdə Xalq Cümhuriyyəti dövrünə aid müxtəlif fotoşəkil və tarixi sənədlərdən ibarət fotoslayd da nümayiş etdirilmişdir.

**Elnur KƏLBİZADƏ**

*Ordubad Rayon İcra Hakimiyyətində Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyi ilə birgə rayonda sığorta işinin hazırkı vəziyyəti və qarşıda duran vəzifələr barədə yığıncaq keçirilmişdir. Yığıncağı Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov açaraq rayonda sığorta sahəsində görülmüş işlərdən danışmışdır.*

## Ordubadda sığorta işi ilə bağlı tədbir



Sonra Naxçıvan Muxtar Respublikası Dövlət Baş Sığorta Agentliyinin Baş direktoru Hikmət Əsgərov çıxış edərək muxtar respublikamızda sığorta fəaliyyətinin müasir tələblərə uyğun şəkildə təkmilləşdirilməsi istiqamətində 30 noyabr 2011-ci il tarixdə Naxçıvan Muxtar Respublikası Ali Məclisində "Muxtar respublikada sığorta fəaliyyəti və qarşıda duran vəzifələr barədə" keçirilən müşavirənin xüsusilə əhəmiyyətli olduğunu vurğulamışdır. Baş direktor sığortanın cəmiyyətdəki əhəmiyyətindən bəhs edərək vaxtında sığortalanmağın baş verən bədbəxt hadisələr zamanı faydalarını diqqətə çatdırmışdır.

Hikmət Əsgərov çıxışında həmçinin qeyd etmişdir ki, ötən müddətdə Ordubad rayonunda da bu istiqamətdə müəyyən işlər görülmüş, müxtəlif sığorta növləri üzrə bağlanılan müqavilələrin sayı artmışdır. Çıxışda Ordubad rayonunda sığorta fəaliyyəti sahəsində görülmüş işlər təhlil olunmuş, daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası, ev əmlakı sığortası, fərdi qəza sığortası və digər sığorta növləri üzrə görülmüş işlərdən və qarşıda duran vəzifələrdən söhbət açılmışdır. Bununla yanaşı, qeyd olunmuşdur ki, Ordubad rayonunda icbari qaydada sığorta olunmalı olan daşınmaz əmlakın icbari sığortası, avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə hələ də sığorta olunmayan hüquqi və fiziki şəxslər vardır. Buna görə də qarşıya qoyulan vəzifələrin vaxtında yerinə yetirilməsi üçün Azərbaycan Respublikasının qanunu ilə tənzimlənən icbari sığortalar üzrə hər bir sığorta obyekti sığorta olunmalıdır.

Ordubad Rayon İcra Hakimiyyətinin başçısı Elşad Məmmədov tədbirə yekun vurmuşdur.

**Əli CABBAROV**

### 28 May Respublika Günüdür

# Müsəlman Şərqinin ilk demokratik, hüquqi və dünyəvi dövləti

***Hər il mayın 28-də xalqımız Azərbaycan Xalq Cümhuriyyətinin yaradılmasının ildönümünü – Respublika Gününü təntənəli şəkildə qeyd edir. Mövcudluğu ilə daim qürur duyduğumuz Azərbaycan Xalq Cümhuriyyətinin yaranması kifayət qədər çətin və mürəkkəb tarixi dövrə təsadüf edir.***

Rusiyada 1917-ci ilin fevralında baş vermiş inqilabdan sonra Zaqafqaziya Dövlət Dumasına seçilmiş deputatlar əvvəlcə Zaqafqaziya İdarəsi üzrə xüsusi komitə, sonra isə Zaqafqaziya Komissarlığı yaratmışdılar. Zaqafqaziya respublikalarından Rusiyanın Müəssislər Məclisinə seçilmiş və bolşeviklərin oktyabr çevrilişindən sonra orada iştirak edə bilməyən nümayəndələr 1918-ci il fevralın 14-də Tiflisdə toplaşaraq Zaqafqaziyada ali hakimiyyət orqanı olan Zaqafqaziya Seymini yaratmaq barədə qərar qəbul etmişdilər.

1918-ci il may ayının 25-də Zaqafqaziya Seymi dağıldıqdan sonra, mayın 27-də Seymin 44 nəfərlik müsəlman fraksiyası Azərbaycanın istiqlaliyyətini elan etmək və ilk milli hökuməti yaratmaq üçün Tiflisdə toplandı. Fraksiya Azərbaycanın idarə olunması səlahiyyətini üzərinə götürmək qərarına gələrək özünü Azərbaycanın Milli Şurası elan etdi. 1918-ci il mayın 28-də isə Azərbaycanın “İstiqlal Bəyannaməsi” qəbul olundu.

Ulu öndər Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin tarixi əhəmiyyətini və mövcudluğunu yüksək qiymətləndirərək deyirdi: ***“Azərbaycan Xalq Cümhuriyyəti qısa müddət ərzində həyata keçirdiyi ciddi tədbirlər sayəsində bütün dövlətçilik atributları – öz parlamenti, ordusu və pul vahidi olan müstəqil, suveren bir dövlətə çevrildi. O, bütün dövlətçilik göstəricilərinə və prinsiplərinə görə Şərqdə ilk demokratik respublika idi. Azərbaycanın Milli Şurasının qəbul etdiyi tarixi bəyannamə yeni yaranmış Azərbaycan Xalq Cümhuriyyətinin daxili və xarici siyasətinin başlıca prinsiplərini bütün dünyaya bildirdi”.***

Azərbaycan Xalq Cümhuriyyətinin hökuməti həmin bəyannamədə xalqın istiqlal və azadlıq əzminin nəticəsi olaraq qazanılmış müstəqilliyi qoruyaraq inkişaf etdirməyi, səmərəli sosial-iqtisadi islahatların həyata keçirilməsi yolu ilə xalqın firavan həyat tərzinə nail olmağı, hər bir fərdin qanuni maraq və mənafeyinin müdafiəsində dayanmağı qarşıda mühüm vəzifələr kimi müəyyənləşdirmişdi. 1918-ci il mayın 28-də elan olunan “İstiqlal Bəyannaməsi”nin dördüncü və beşinci bəndlərində deyilirdi: *“Azərbaycan Xalq Cümhuriyyəti millət, məzhəb, sinif, məslək və cins fərqi gözləmədən qəmələrovunda (hüququ daxilində) yaşayan bütün vətəndaşların hüququ siyasiyyə və vətəniyyə təmin eləyir. Azərbaycan Xalq Cümhuriyyəti ərazisi daxilində yaşayan bilcümlə millətlərə sərbəstanə inkişafları üçün geniş meydan buraxır”.*

Həmin dövrdə Milli Şuranın və hökumətin qarşısında duran ən mühüm vəzifələrdən biri də Azərbaycanın istiqlaliyyətinin beynəlxalq aləmdə tanınması idi. 1918-ci il mayın 30-da radioteleqrafla dünyanın əsas siyasi mərkəzlərinə Azərbaycanın öz müstəqilliyini elan etməsi barədə məlumat verilmişdi.

Milli Şura ilk hökumətin təşkilini Fətəli xan Xoyskiyə tapşırmışdı. İlk hökuməti 9 nazir təmsil edirdi. Həmin dövrdə Bakı şəhəri Bakı Xalq Komissarları Sovetinin nəzarətində olduğu üçün 1918-ci il iyunun 16-da Azərbaycan Milli Şurası və müvəqqəti hökumət Tiflisdən Gəncəyə köçmüşdü. Bir gün sonra Gəncədə Milli Şura öz fəaliyyətini müvəqqəti olaraq dayandırmış və Müəssislər Məclisi çağırılanadək bütün hakimiyyəti Fətəli xan Xoyskinin sədrliyi ilə yaradılmış ikinci hökumətə həvalə etmişdi.

Həmin dövrdə son dərəcə cəsarətli bir addım kimi qiymətləndirilən demokratik dövlət modelinin yaradılması – parlamentli respublikanın qurulması Azərbaycanın çoxəsrlik dövlətçilik tarixində yeni bir mərhələnin başlanğıcı idi. Dövlət quruculuğu istiqamətində ilk günlərdən qəti tədbirlər görülməsinə başlanmış, yaranmış gərgin milli-etnik və hərbi-siyasi şəraitin diktəsi ilə qaçılmaz addım kimi iyunun 19-da bütün Azərbaycan ərazisində hərbi vəziyyət elan olunmuş, iyunun 26-da müsəlman hərbi korpusunun ayrıca Azərbaycan korpusuna çevrilməsi ilə Milli Ordunun yaradılmasının əsası qoyulmuşdu.

Hökumətin nəzarəti altında olan ərazidə vəziyyəti sabitləşdirmək, nəqliyyat, poçt-teleqraf rabitəsi yaratmaq üçün mühüm tədbirlər görülmüş, avqustun 23-də Azərbaycan vətəndaşlığı haqqında fərman verilmişdi. Lakin hökumətin ən mühüm vəzifəsi ölkənin bütün ərazisində Azərbaycan Xalq Cümhuriyyətinin hakimiyyətini bərqərar etmək, Bakını və onun ətrafını Azərbaycan xalqının düşmənlərindən təmizləmək idi. 1918-ci il sentyabrın 15-də Bakı azad edilmiş, sentyabrın 17-də Azərbaycan hökuməti Bakıya köçmüşdü.

1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyətinin üzərində aypara və səkkizguşəli ulduz təsviri olan üçrəngli Dövlət bayrağı qəbul olunmuşdur. Parlamentli respublika idarəçiliyinin hüquqi norma və qaydalarına sadiq qalan hökumət Müəssislər Məclisinin çağırılması üçün bir sıra tədbirlər həyata keçirsə də, ölkədə yaranmış ağır ictimai-siyasi, mürəkkəb hərbi şərait parlamentə seçkilər keçirməyi çətinləşdirirdi. Milli hökumət Azərbaycan parlamentini mümkün qədər tez formalaşdırmağa çalışırdı. 1918-ci il noyabrın 16-da toplanan Milli Şura mövcud fövqəladə şəraitdə Müəssislər Məclisinin çağırılmasının qeyri-mümkünlüyü ilə əlaqədar olaraq, ali hakimiyyət orqanı kimi “Azərbaycan parlamentinin yaradılması haqqında” Qanun layihəsini hazırlamış və həmin ilin noyabrın 19-da bu qanunu qəbul etmişdi.

Parlament ölkə əhalisinin hər 24 min nəfərinə 1 nəfər nümayəndə hesabı ilə 120 nəfərdən ibarət olmalı idi. Beləliklə, real seçkilər keçirilmədən formalaşan, Milli Şura tərəfindən təşkil edilmiş parlamentin 1918-ci il dekabrın 7-də Hacı Zeynalabdin Tağıyevin Qızlar məktəbinin binasında təntənəli açılışı olmuşdu. Bütün müsəlman Şərqində dövrün ən demokratik prinsipləri əsasında formalaşdırılmış ilk parlamentin sədri Əlimərdan bəy Topçubaşov, onun birinci müavini isə Həsən bəy Ağayev seçilmişdi. Dövrün bütün gərgin ictimai-siyasi amilləri nəzərə alınaraq qeyd edilməlidir ki, parlament 17 aylıq aramsız fəaliyyəti dövründə həyata keçirdiyi müstəqil dövlət quruculuğu təcrübəsi ilə Azərbaycan dövlətçiliyi tarixində dərin iz qoymuşdur.

Azərbaycan parlamenti geniş səlahiyyətlərə malik olmuş və ölkənin milli maraqlarının qorunması baxımından mühüm addımlar atmışdı. Parlamentin sədri Əlimərdan bəy Topçubaşovun rəhbərlik etdiyi nümayəndə heyətinin Paris Sülh Konfransında uğurlu diplomatik fəaliyyəti sayəsində 1920-ci il yanvarın 11-də Azərbaycan müstəqil dövlət kimi tanınmışdı. Azərbaycan Xalq Cümhuriyyəti fəaliyyət göstərdiyi dövr ərzində 20-dən çox dövlətlə diplomatik əlaqələr yaratmışdı.

Azərbaycan Xalq Cümhuriyyəti ölkənin ərazi bütövlüyünü və suverenliyini qoruyub saxlamaq üçün çox çətin şəraitdə mübarizə aparır, bütün imkanlardan istifadə edir, taleyüklü məsələlərin həllinə çalışırdı. Cümhuriyyətin ölkəmizin ərazi bütövlüyünü qorumağa yönəlmiş tədbirlərindən biri də Naxçıvan məsələsi idi. Çünki o dövrdə Naxçıvan ağır illər yaşayırdı. Həmin dövrdə Naxçıvan məsələsi həm daxildə, həm də beynəlxalq aləmdə müxtəlif mənafelərin toqquşduğu, ziddiyyətlərin kəsişdiyi düyün nöqtələrindən birinə çevrilmiş, ermənilərin Naxçıvana hücumları bu qədim diyarı çıxılmaz vəziyyətə salmışdı. Azərbaycan Xalq Cümhuriyyəti yarandığı gündən Naxçıvan diyarının əhalisi bu respublika ilə birləşməyə hazır olduğunu bildirsə də, mövcud siyasi və beynəlxalq vəziyyət Naxçıvan əhalisinin arzusunu həyata keçirməyə imkan vermirdi. Naxçıvan əhalisi bölgənin Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılması üçün inamla mübarizə aparırdı. Azərbaycan Xalq Cümhuriyyətinin Baş nazirləri olmuş Fətəli xan Xoyski və Nəsib bəy Yusifbəyli imkanları daxilində Naxçıvana köməklik edir, onun Azərbaycan ərazisi kimi qorunub saxlanılması üçün siyasi, diplomatik, maddi və mənəvi vasitələrdən istifadə edir, qəhrəman naxçıvanlıların fəaliyyətini yüksək qiymətləndirirdilər. 1919-cu il dekabrın 22-də Nəsib bəy Yusifbəyli parlamentdəki çıxışında demişdir: *“İgid naxçıvanlılar, şərurlular... bu məsələni özləri həll ediblər; onlar həyatlarını, ailələrinin şərəfini və var-dövlətlərini riskə qoyaraq doğma torpağa – Vətənə qovuşmaq üçün ayağa qalxıb azad oldular və bununla da, hökumətin işini asanlaşdırdılar. Güman edirəm ki, haqq və ədalət tərəfdarları bu qətiyyəti, fədakarlığı və vətənpərvərliyi gördən sonra onların qanuni hüquqlarını danmayacaqlar...”*

Göründüyü kimi, Naxçıvan əhalisi cidd-cəhdlə Azərbaycan Xalq Cümhuriyyəti ilə sıx əlaqələr yaratmağa çalışmış, onunla birləşmək üçün səy göstərmişdir.

Beləliklə, aydın olur ki, Azərbaycan Xalq Cümhuriyyəti hökuməti və parlamenti hərbi-siyasi vasitələrdən istifadə edərək ölkənin ərazi bütövlüyünü qorumağa çalışmış, Naxçıvanın ermənilər tərəfindən işğal edilməsinə yol verməmiş, bu istiqamətdə ingilislər və amerikalılarla diplomatik danışıqlar aparmışlar. Lakin bütün bunlarla yanaşı, özləri çətin ictimai-siyasi və hərbi vəziyyətlə qarşılaşdıqlarından bir sıra hallarda məqsədlərinə tam nail ola bilməmişlər. Yerli əhalinin igidliyi və qəhrəmanlığı sayəsində Naxçıvan ərazisi Azərbaycanın tərkib hissəsi kimi qorunub saxlanılmışdır.

Qarşısına müstəqil, azad və demokratik respublika qurmaq vəzifəsi qoyan Azərbaycan Xalq Cümhuriyyəti 23 aylıq fəaliyyəti dövründə xalqımızın öz müqəddəratını təyin etməyə qadir olduğunu əyani şəkildə bütün dünyaya nümayiş etdirmişdir. Həyata keçirilən tədbirlər Azərbaycan xalqının dövlətçilik ənənələrinin bərpasına və milli mənlik şüurunun güclənməsinə böyük təsir göstərmişdir. Təəssüf ki, 1920-ci ilin aprelində yaranmış vəziyyət xalqımıza istiqlal mücadiləsini sonadək davam etdirməyə imkan vermədi.

Azərbaycanın dövlət müstəqilliyinin əbədi, dönməz xarakter alması ümummilli liderimiz Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərimizin Azərbaycana rəhbər seçildiyi 1969-cu ilin 14 iyulu respublikamızı həqiqi müstəqilliyə aparan yolun başlanğıcı oldu. Ümummilli liderimizin rəhbərliyi altında ötən əsrin 70-80-ci illərində həyata keçirilmiş kompleks tədbirlər ölkəmizin XX əsrin 90-cı illərində müstəqillik uğrunda mübarizəsinə real hüquqi-siyasi və iqtisadi əsaslar yaratmışdır.

XX yüzilliyin sonunda Azərbaycan yenidən öz dövlət istiqlaliyyətini bərpa etmək imkanı əldə etmişdir. XX əsr Azərbaycan xalqının tarixində, başlıca olaraq, əvvəlcə dövlət müstəqilliyinin əldə olunaraq qısa müddət ərzində (1918-1920-ci illər) mövcud olması, əsrin sonunda isə yenidən bərpası ilə əlamətdar olmuşdur. Mühüm coğrafi-strateji mövqeyi olan ölkəmizin iki əsrə yaxın müstəmləkəçilik həyatından sonra azadlıq, müstəqillik məşəli 1991-ci ildə yenidən alovlanmış, əsrin əvvəlində olduğu kimi, əsrin sonlarında da dövlət müstəqilliyimiz real məhvolma təhlükəsi ilə üz-üzə qalmışdı. Erməni daşnakları tərəfindən hərbi təcavüzə məruz qalmış ölkəmizdə son dərəcə təhlükəli vəziyyət yaranmışdı.

Tarix dəfələrlə sübut etmişdir ki, Azərbaycan xalqı müstəqil dövləti yaratmaq istəyəndə həmişə erməni faktoru ilə üzləşmiş, Azərbaycanın müstəqil dövlət olmasını istəməyən qüvvələr daim “erməni məsələsi”ndən istifadə etmişlər. Əgər XX əsrin əvvəllərində xalqımız müstəqil dövləti yaratmaq istəyərkən 1918-ci ilin mart soyqırımı ilə üzləşmişdisə, ötən əsrin 90-cı illərində 20 Yanvar faciəsi, Xocalı soyqırımı baş vermiş, torpaqlarımızın 20 faizi işğal olunmuşdur.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə yaranmış gərgin vəziyyəti belə xarakterizə etmişdir: ***“Bütün tarix boyu xalqımızın müstəqillik arzusu ilə yanaşı, bu istəyə qarşı həyata keçirilmiş faciə və soyqırımı hadisələri də heyrətamiz şəkildə təkrar olunmuşdur. Xalqımızın bəxti onda gətirmişdir ki, ötən əsrin sonlarında nail olduğumuz ikinci dövlət müstəqilliyi üçün real təhlükə yarandığı bir dövrdə Heydər Əliyev kimi qüdrətli şəxsiyyət yenidən ali hakimiyyətə qayıtmış, Azərbaycan Xalq Cümhuriyyəti ilə başlanan milli dövlətçiliyi arzudan reallığa çevirmişdir”.***

Ümummilli liderimiz Heydər Əliyev bütün həyatını Azərbaycanın müstəqilliyinə həsr etmişdir. 1990-cı il iyulun 22-də görkəmli dövlət xadimi Heydər Əliyevin Naxçıvana qayıdışı və buradan başlanan milli dirçəliş prosesi Azərbaycanın müstəqilliyinin əldə olunmasına və onun qorunub saxlanılmasına şərait yaratmışdır. 1990-cı il noyabrın 17-də ulu öndərimizin sədrliyi ilə keçirilən Naxçıvan MSSR Ali Sovetinin sessiyasında ümummilli liderimizin təşəbbüsü ilə “Naxçıvan MSSR-in adının dəyişdirilməsi haqqında”, “Naxçıvan Muxtar Respublikası Ali Dövlət hakimiyyəti orqanı haqqında”, “Naxçıvan Muxtar Respublikasının Dövlət rəmzləri haqqında” tarixi qərarlar qəbul edilmiş, müstəqilliyimizin əsas atributlarından olan Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının Dövlət bayrağı kimi qəbul olunmuşdur.

Ümummilli liderimiz Heydər Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin ölkəmizin dövlətçilik tarixində rolunu həmişə yüksək qiymətləndirmiş, cümhuriyyətin xalqımızın azadlıq və müstəqillik fikirlərini daha da gücləndirdiyini bildirmişdir. Ulu öndərimizin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə, 1993-cü il mayın 27-də Azərbaycan Xalq Cümhuriyyətinin 75 illik yubileyi də müstəqil ölkəmizdə ilk dəfə Naxçıvanda qeyd olunmuşdur.

Dahi şəxsiyyətin 1993-cü ildə ölkəmizdə yenidən siyasi hakimiyyətə qayıdışından sonra Azərbaycan düşdüyü bəlalardan xilas edilmiş, dövlət müstəqilliyimiz möhkəmləndirilmiş, cümhuriyyətçilik ideyaları bərqərar olunmuşdur. Xalqımızın böyük oğlunun 1998-ci il 30 yanvar tarixli Sərəncamı ilə Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi ölkəmizdə geniş qeyd edilmişdir. Görkəmli dövlət xadimi dövlətçilik tariximizdə Azərbaycan Xalq Cümhuriyyətinin özünəməxsus yeri olduğunu nəzərə alaraq Bakı şəhərində Xalq Cümhuriyyətinin xatirəsinə abidə ucaldılması haqqında 2003-cü ilin fevral ayında sərəncam imzalamışdır.

Ümummilli liderimiz Heydər Əliyevin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev Azərbaycan Xalq Cümhuriyyətinin dövlətçilik tariximizdəki roluna yüksək qiymət verir. Cümhuriyyət tariximizin 90 və 95 illik yubileyləri ölkəmizdə geniş qeyd olunmuşdur.

Ölkə rəhbərimiz Azərbaycan Xalq Cümhuriyyətinin siyasi tariximizdəki rolunu yüksək qiymətləndirərək demişdir: ***“Müsəlman aləmində ilk dəfə olaraq Azərbaycanda demokratik respublika yaranmışdır. Bu, böyük və tarixi hadisə idi. Çünki Azərbaycan xalqı əsrlər boyu arzuladığı müstəqilliyə, azadlığa qovuşurdu. Azərbaycan xalqının artıq öz dövləti var idi. Eyni zamanda respublikanın yaranması müsəlman aləmində respublika quruluşunun yayılmasına da təkan vermişdir. Qısa müddət ərzində bütün dövlət qurumları, dövlət təsisatları yaradılmışdır. Demokratik inkişaf gedirdi, qadınlara səsvermə hüququ verilmişdir, Milli Ordu yaradılmışdır. Bir sözlə, respublikanın qurucuları böyük işlər görmüşdülər və Azərbaycan xalqı onların xatirəsinə böyük hörmətlə yanaşır”.***



*Bu gün Azərbaycan müstəqil dövlətdir. Dünyada söz sahibidir. Beynəlxalq aləmdə ölkəmizin nüfuzu, mövqeyi getdikcə möhkəmlənir. Qürurla yüksələn istiqlal bayrağımız dalğalandıqca ulu öndərimizin* ***“Müstəqilliyimiz əbədidir, dönməzdir, sarsılmazdır!”*** *fikrini Vətən torpağına və bütün dünyaya bəyan edirik. Xalqımızın canında və qanında coşan istiqlal ideyaları bizi bu bayrağı başımız üstə qaldırıb Qarabağa doğru zəfər yürüşünə, Şuşa, Xankəndi və digər torpaqlarımızda yüksəltməyə səsləyir.*

**“Şərq qapısı”**

# Bir millətin, iki dövlətin körpüsü

***Ölkəmizdə milli bayram – Respublika Günü kimi qeyd edilən 28 may tarixi 22 il bundan əvvəl Azərbaycan-Türkiyə sərhədində, Araz çayı üzərində Sədərək-Dilucu körpüsünün istifadəyə verilməsi ilə də əlamətdardır. Bu tarix iki qardaş xalqı bir-birinə qovuşdurmaq, yurddan-yurda, könüldən-könülə körpü salmaq və ən nəhayət, ağır blokada şəraitində yaşayan bir diyarın – Naxçıvanın inkişafı baxımından özündə bir çox mətləbləri birləşdirir. Naxçıvanın bu mühüm nəqliyyat arteriyasına "Ümid", "Həsrət" və ya "Könül" körpüsü də deyirlər. Bu yolla təkcə Türkiyə ilə Azərbaycan birləşmir, bu körpü həm də türk dünyasının coğrafi bütünlüyünü təmin edir. Dünyanın başqa bir yerində mənəvi cəhətdən bu qədər dəyəri olan, istifadəyə verilməsi bayrama çevrilən ikinci bir körpü yoxdur.***

Təbii ki, hadisələrin əsl mahiyyəti onun öz zamanı çərçivəsində dəyərləndirilməsi nəticəsində ortaya çıxır. Bu baxımdan 22 il bundan öncə Naxçıvanda baş verənləri düzgün qiymətləndirmək üçün dövrün mənzərəsini göz önündə canlandırmaq kifayətdir. Naxçıvan o dövrdə tamamilə təklənmişdi. Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın əsas ərazisi ilə nəqliyyat-kommunikasiya əlaqələri kəsilmiş, iqtisadi böhran dərinləşmişdi. Azərbaycanın o zamankı iqtidarı ölkədaxili vəziyyətə nəzarət edə bilmirdi. Belə bir şəraitdə Naxçıvanın yeganə çıxış yolu qonşu ölkələrlə yeni əlaqələrin qurulması idi. O dövrdə Türkiyə ilə münasibətlərin bərpası istiqamətində Naxçıvanda görülən işlər, atılan addımlar Azərbaycan-Türkiyə münasibətlərinin gələcəyinə – bu gününə istiqamətlənmişdi. Məlumdur ki, sovet rejimi 70 il ərzində iki qardaş xalqın bir araya gəlməsinə mane olmaq üçün bütün ideoloji vasitələrini işə salmış, müxtəlif qadağalar tətbiq etmişdi. Zaman göstərdi ki, bütün növ məhdudiyyətlər və məhrumiyyətlər nəinki içimizdəki qardaşlıq duyğularını yox edə bilməmiş, əksinə, könüldən-könülə sarsılmaz tellər, qırılmaz bağlar yaranmışdı.

Ulu öndər Heydər Əliyev Naxçıvana rəhbərliyi dövründə Qars və Moskva müqavilələrini gündəliyə gətirməklə münasibətlərimizin mahiyyətini ortaya qoymuşdu. Böyük Atatürkün "Türk qapısı" adlandırdığı bu qədim yurd yerində "Bir millət, iki dövlət" şüarı reallığa çevrilirdi. 1991-ci ildə Türkiyə ilə Naxçıvan arasında müvəqqəti körpü açılmışdı, əsas körpünün inşası isə davam etdirilirdi. Ulu öndər bu körpünün qısa vaxtda istifadəyə verilməsinə çalışırdı. Hətta bu məqsədlə Türkiyə hökumətinə xüsusi məktub da ünvanlamışdı. Dahi rəhbərin 1992-ci il mart ayının 22-dən 24-dək Türkiyəyə səfəri çərçivəsində Ankarada imzalanmış "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əməkdaşlıq protokolu"nda da bu məsələ öz əksini tapmışdı.

"Ümid körpüsü"nün açılışı zamanı bütün dünyanın diqqəti Naxçıvana, Naxçıvan-Türkiyə sərhədində baş verənlərə yönəlmişdi. On minlərlə soydaşımızın iştirakı ilə keçirilən tarixi açılış mərasimindəki nitqində ulu öndər Heydər Əliyev xalqlarımız arasında uzun illərdən bəri davam edən həsrət və intizarın sona çatdığını bildirərək demişdir: ***"Araz çayının o sahilində, bu sahilində dost, qardaş kimi yaşamışıq. Ancaq 70 ildir ki, bir-birimizlə görüşmək üçün, əlaqə saxlamaq üçün həsrət çəkmişik. 70 il biz bu günü böyük həsrətlə gözləmişik. İndi isə bizim bu arzularımız, bizim bu diləklərimiz həyata keçibdir. Naxçıvan ilə, Azərbaycan ilə Türkiyəni bağlayan nəhəng bir körpü tikilibdir".***



Qardaş ölkənin o vaxtkı Baş naziri Süleyman Dəmirəl körpünün əhəmiyyətini yüksək qiymətləndirərək demişdir: "Bu körpü, sadəcə, Türkiyə ilə Azərbaycanı deyil, dünyanı, iki ayrı dünyanı, Avropayla Asiyanı, Avropayla Qafqazları – hamısını bir-birinə bağlayacaqdır. Məhz onu dəyərli edən də budur".

Sədərək-Dilucu körpüsünün istifadəyə verildiyi gün Naxçıvanda əsl bayram sevinci yaşanırdı. Naxçıvanlılar bu tarixi unutmur... Türkiyə-Azərbaycan-Naxçıvan əlaqələrinin qurulması, inkişafı və dərinləşməsi istiqamətində görülmüş işlər daim ehtiramla xatırlanır. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***"Bizim bütün əlaqələrimiz qardaşlığımızın və dostluğumuzun əbədi nişanəsi, böyük Atatürkün və ümummilli lider Heydər Əliyevin izləri olan Sədərək-Dilucu körpüsü vasitəsilə həyata keçirilir. Fəaliyyət göstərdiyi dövrlərdə Sədərək-Dilucu körpüsü bizi bir-birimizə daha sıx birləşdirmiş, hər iki tərəfdən insanların həyatının yaxşılaşmasına xidmət göstərmişdir".***

Tədqiqatçılar Türkiyə-Azərbaycan, həmçinin Naxçıvan əlaqələrinin bugünkü səviyyəsindən, türk dünyasının birlik və bütövlük ideyalarının gerçəkləşdirilməsi məsələlərindən danışarkən Sədərək-Dilucu körpüsünün əhəmiyyətini xüsusi qeyd edirlər. Belə ki, bu körpü sabaha uzanan işıqlı yolun başlanğıcı, təməli oldu, eyni zamanda Türkiyənin şərq vilayətlərinin inkişafını şərtləndirdi.

Bu gün Türkiyə-Azərbaycan əlaqələrində, türk dünyasının birlik və həmrəyliyində Naxçıvanın xüsusi yeri vardır. Türkdilli Ölkələrin Dövlət Başçılarının IX Zirvə görüşünün Naxçıvanda keçirilməsi, sammit çərçivəsində "Naxçıvan Bəyannaməsi"nin imzalanması bunun daha bir sübutu kimi mühüm tarixi hadisədir. 2010-cu ilin oktyabr ayında Azərbaycan-Türkiyə Biznes Forumunun Naxçıvanda təşkili iqtisadi əlaqələrin yeni müstəvidə sürətli inkişafı üçün əlverişli imkanlar açmışdır. Muxtar respublikanın sürətli sosial-iqtisadi inkişafı, ixrac potensialı, eləcə də qarşılıqlı faydalı əməkdaşlıq imkanları türk iş adamlarının Naxçıvana marağını artırır. Bu gün Türkiyə ilə Naxçıvan arasında bütün sahələrdə yaradılan qarşılıqlı əlaqələr durmadan inkişaf edir və möhkəmlənir.

2010-cu ilin aprel ayında Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun Türkiyəyə rəsmi səfəri, bu zaman qardaş ölkənin dövlət və hökumət başçıları, ordu rəhbərliyi və digər rəsmi şəxslərlə keçirilən görüşlər əlaqələrin inkişafı baxımından mühüm əhəmiyyət daşıyır. Artıq dörd ilə yaxındır ki, Türkiyə ilə Naxçıvan arasında müntəzəm təyyarə reysləri həyata keçirilir. Bütün bunlar bir daha göstərir ki, Naxçıvan Azərbaycanın Türkiyə ilə yeganə sərhəd bölgəsi olmaqla yanaşı, həm də ikitərəfli münasibətlərin inkişafına da öz töhfəsini verir.

Bu gün Türkiyə ilə Naxçıvan arasında başqa sahələrdə olduğu kimi, gömrük işi sahəsində də qarşılıqlı anlaşma şəraitində möhkəm əlaqələr mövcuddur. Son illərdə qarşılıqlı münasibətlərin daha da dərinləşməsi, birgə əməkdaşlığın gücləndirilməsi istiqamətində ardıcıl iş aparılır, müxtəlif sahələrdə razılıqlar əldə olunur. Gömrük orqanlarımız 24 saat fəaliyyət göstərir. Naxçıvan Muxtar Respublikasının xarici ticarət əlaqələrində Türkiyə Respublikasının payı və rolu ilbəil artır. Ötən il ərzində Sədərək Gömrük Sərhəd-Buraxılış Məntəqəsi vasitəsilə dünyanın 30-dan çox ölkəsi ilə ticarət əlaqəsi yaradılmışdır.

***Naxçıvanın xarici ticarət dövriyyəsində əsas yeri Türkiyə tutur. Şərqlə Qərbin qovşağında, Böyük İpək Yolunun üzərində yerləşən bu qədim diyarın sürətli sosial-iqtisadi inkişafı bölgənin turizm, eləcə də tranzit imkanlarını ildən-ilə artırır. Bütün bunlar isə onu deməyə əsas verir ki, 22 ildir, ümidlərin və arzuların körpüsü olaraq bir millətin iki dövlətini birləşdirən Sədərək-Dilucu körpüsü bundan sonra da iki qardaş xalqın firavanlığına, birliyinə və bütövlüyünə xidmət edəcəkdir.***

***Naxçıvan Muxtar Respublikası***
***Dövlət Gömrük Komitəsinin mətbuat xidməti***

# Səhiyyə işçiləri Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyini müxtəlif tədbirlərlə qeyd edir

***Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin birgə razılaşdırılmış Tədbirlər Planına uyğun olaraq, muxtar respublikamızın 90 illiyi münasibətilə tədbirlər davam etdirilir. Artıq yubiley çərçivəsində bir sıra işlər görülmüş, humanitar aksiyalar təşkil olunmuşdur. Bu tədbirlərdən biri də aprelin 25-də muxtar respublika Səhiyyə Nazirliyində keçirilən Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin səyyar kollegiya iclasıdır.***

Qeyd edək ki, səhiyyə xidmətlərinin genişləndirilməsi və onun keyfiyyətinin artırılması, səhiyyə müəssisələrinin dərman və avadanlıq təminatının daha da yaxşılaşdırılması, tibbi profilaktika tədbirlərinin əhatəliliyinin və keyfiyyətinin əhəmiyyətli dərəcədə yüksəldilməsi, yeni səhiyyə müəssisələrinin inşası işləri müntəzəm olaraq həyata keçirilir. Ölkəmizin paytaxtı Bakı şəhərində fəaliyyət göstərən kardiocərrahiyyə, uroloji, plastik, göz, angioqrafiya və digər ixtisaslar üzrə həkim briqadalarının dəvət olunaraq muxtar respublikamıza gətirilməsi, aztəminatlı ailələr üçün nəzərdə tutulmuş xüsusi sağlamlıq layihələrinin intensiv qaydada icra olunması davam etdirilir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin yüksəkixtisaslı həkim briqadalarının, hər il olduğu kimi, "Muxtariyyət ili"ndə də muxtar respublikamıza gəlməsi aztəminatlı ailələrdən olan xəstələrin müayinə və müalicə işinin daha da yaxşılaşmasına və həmin xəstələrin muxtar respublikadan kənara getmədən mürəkkəb cərrahi əməliyyatlarının təşkilinə şərait yaradır. Bu il nazirliyin Mərkəzi Neftçilər Xəstəxanası Kardiocərrahiyyə Mərkəzinin həkim briqadası artıq iki dəfə Naxçıvana gəlmiş, Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 26 açıq ürək, periferik damar əməliyyatları aparmışlar.



Mərkəzi Neftçilər Xəstəxanasının invaziv kardioloqları da Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində xəstələr üzərində angioqrafiya əməliyyatı aparmış, stent qoymuşlar. Bütövlükdə, son illər ərzində Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində yüzlərlə xəstə üzərində angioqrafiya əməliyyatı aparılmış, daralmış ürək damarları balonla genişləndirilmiş, stentlər, kardiostimulyatorlar qoyulmuş, müxtəlif anadangəlmə və qazanılmış ürək qüsurları aradan qaldırılmışdır.

Akademik Zərifə Əliyeva adına Milli Oftalmologiya Mərkəzinin 7 nəfərlik həkim briqadası tərəfindən Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində 15, Naxçıvan Muxtar Respublikası Göz Xəstəxanasında isə 24 göz əməliyyatı, 58 müayinə aparılmışdır.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi çərçivəsində Əziz Əliyev adına Azərbaycan Dövlət Həkimləri Təkmilləşdirmə İnstitutunun rektoru Nazim Qasımovun rəhbərlik etdiyi 13 nəfərlik heyət də ötən ay muxtar respublikamıza ezam olunmuş, həkimlər ilk gündən ixtisaslarına uyğun müvafiq xəstəxanalarda fəaliyyət göstərmişlər. Bu səfərdə əsas məqsəd yerli həkimləri tibb elminin aktual problemləri barədə məlumatlandırmaq, onların yeni müayinə və müalicə üsulları barədə biliklərini təkmilləşdirməkdən ibarət olmuşdur. Heyətdə təmsil olunan yüksəkixtisaslı həkimlər Naxçıvan Diaqnostika-Müalicə Mərkəzində cərrahiyyə, Əziz Əliyev adına Naxçıvan Muxtar Respublikası Mərkəzi Uşaq Xəstəxanasında pediatriya, Akademik Zərifə Əliyeva adına Naxçıvan Şəhər Poliklinikasında terapiya, Doğum Mərkəzində ginekologiya, Psixi Xəstəliklər Dispanserində nevrologiya və psixiatriya, Kardioloji Mərkəzdə isə kardiologiyanın aktual problemlərinə dair mühazirələr oxumuş, dinləyiciləri maraqlandıran sualları cavablandırmışlar.

Həkim briqadasına daxil olan bir qrup mütəxəssisin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzində mürəkkəb cərrahiyyə əməliyyatı da həyata keçirilmişdir.

Akademik Mirqasımov adına Respublika Klinik Xəstəxanasının baş həkimi Telman İbadovun rəhbərlik etdiyi yüksəkixtisaslı həkim heyəti isə aprel ayının 23-dən Ordubad rayonunda növbəti humanitar aksiya keçirmişdir. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi münasibətilə Ordubad Rayon Mərkəzi Xəstəxanasında təşkil olunan üçgünlük aksiya çərçivəsində 2361 pasiyent profilaktik tibbi müayinə ilə əhatə edilmiş, cərrahi müdaxiləyə ehtiyacı olan 64 nəfər üzərində əməliyyat aparılmışdır.

Bu tədbirlərin davamı olaraq, Azərbaycan Respublikası Səhiyyə Nazirliyi M.A.Topçubaşov adına Elmi-Cərrahiyyə Mərkəzinin nəzdindəki Uşaq Ürək Cərrahiyyə Mərkəzinin 14 nəfərdən ibarət heyəti bu günlərdə Naxçıvana gəlmişdir. Tibb üzrə fəlsəfə doktoru Elnur Həsənovun rəhbərlik etdiyi heyətin tərkibində 3 cərrah, 2 uşaq kardioloqu, 2 anestezioloq-reanimatoloq, 1 perfuzioloq-həkim, 6 tibb bacısı vardır. Mərkəzin invaziv kardioloqu Elnur İmanov isə ehtiyac olduqca qeyri-iş günlərində Naxçıvana gələrək əvvəlcədən qeydiyyata alınmış əməliyyata ehtiyacı olan uşaqların müayinə və müalicəsində iştirak etmişdir. Ötən həftə yenidən Naxçıvana gələn E.İmanov həftə ərzində 40 nəfər anadangəlmə ürək qüsurlu uşağın müayinəsini aparmış, 4 uşaqda qapalı, 14 uşaqda açıq ürək əməliyyatının aparılması qərara alınmışdır. Artıq 3 xəstə üzərində açıq ürək əməliyyatları uğurla başa çatdırılmışdır. Əməliyyat üçün seçilmiş digər 10 xəstə həftə sonuna kimi əməliyyat olunacaqdır.

Həftə ərzində 4 nəfər anadangəlmə ürək qüsurlu xəstə üzərində pulmonar ballono plastika, botal axacağın bağlanması əməliyyatı aparılacaqdır.

Qeyd edilməlidir ki, Uşaq Ürək Cərrahiyyə Mərkəzi ilə qarşılıqlı əlaqələr Naxçıvanda uşaq invaziv kardiologiyasının inkişafında əhəmiyyətli rol oynayır. Naxçıvanda uşaqlar üzərində açıq ürək əməliyyatlarının təşkili isə qarşılıqlı əməkdaşlığın ən böyük uğurlarından biridir.

Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin dəstəyi ilə Naxçıvanda elmi-praktik konfrans və seminarların keçirilməsi də artıq ənənə halını almışdır. Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ilə əlaqədar mayın 28-də Bakı şəhərində fəaliyyət göstərən "İmplandent" klinikası heyətinin iştirakı ilə "Stomatologiyanın aktual problemləri", 2-6 iyun tarixlərində isə Azərbaycan Respublikası Səhiyyə Nazirliyi Endokrinoloji Mərkəzin iştirakı ilə "Diabetik neyropatiya və diabetik nefropatiya" mövzularında elmi-praktik konfransların keçirilməsi, muxtar respublikanın rayonlarında endokrinoloji xəstələrin müayinəsi nəzərdə tutulmuşdur.

***Naxçıvan Muxtar Respublikası***
***Səhiyyə Nazirliyinin***
***mətbuat xidməti***

***Dünən Naxçıvan Qarnizonu tam orta məktəbində şagird elmi cəmiyyətinin elmi konfransı keçirilmişdir. Konfransı giriş sözü ilə məktəbin direktoru Natiq Əhmədov açaraq məruzə ilə çıxış etmişdir.***

# Naxçıvan Qarnizonu tam orta məktəbində elmi konfrans



Qeyd olunmuşdur ki, ölkəmizdə həyata keçirilən təhsil islahatları və müvafiq dövlət proqramları bu sahənin inkişafına hərtərəfli şərait yaratmışdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, muxtar respublikamızda təhsilin səviyyəsi ildən-ilə yüksəlir, istedadlı şagirdlərin sayı getdikcə artır.

"Məktəbdə yaranmış ənənələrdən biri də dərs ilinin sonunda məktəbin şagird elmi cəmiyyətinin konfransını keçirməkdir", – deyən məktəb direktoru qeyd etmişdir ki, bu il məktəbin 14 şagirdi elmi iş üzərində işlərini yekunlaşdıraraq müzakirəyə təqdim etmişdir.

Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru, professor Oruc Həsənli, Naxçıvan Dövlət Universitetinin elmi işlər üzrə prorektoru Mübariz Nuriyev, "N" hərbi hissənin zabiti, polkovnik Vasif Kazımov çıxış edərək muxtar respublikamızda təhsilə göstərilən dövlət qayğısından danışmış, şagirdlərə təhsil uğurları arzulamışlar.

Sonra şagird elmi cəmiyyəti üzvlərinin məruzələri dinlənilmişdir.

✍ **Səbuhi HƏSƏNOV**

*Naxçıvan Muxtar Respublikasında fəaliyyət göstərən sahibkarlıq subyektləri və tikinti təşkilatları nümayəndələrinin iştirakı ilə Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətində maarifləndirici tədbir keçirilib.*

## Əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi



Tədbiri giriş sözü ilə xidmətin şöbə rəisi Əfqan Əliyev açaraq tədbirin mahiyyəti barədə məlumat verib.

Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinin baş inspektoru Zakir Məmmədovun "Azərbaycan Respublikasında əmək miqrasiyası və onun hüquqi tənzimlənməsi", şöbə rəisi İlqar Seyidovun "Əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin Azərbaycan Respublikasında olduğu yer üzrə qeydiyyatı", Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yanında Dövlət Məşğulluq Xidmətinin rəisi Sevindik Vəliyevin "Əmək ehtiyatlarından səmərəli istifadədə və peşəkar kadr hazırlığında Məşğulluq Xidmətinin rolu", İqtisadiyyat və Sənaye Nazirliyinin şöbə müdiri Emin Zeynalovun "Naxçıvan Muxtar Respublikasında əmək bazarı, onun tənzimlənməsi və iqtisadi mahiyyəti" mövzularında çıxışları olub.

Çıxışlarda qeyd olunub ki, 18 yaşına çatmış əmək qabiliyyətli hər bir əcnəbi və vətəndaşlığı olmayan şəxs onu işə cəlb edən hüquqi şəxslər, hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslər və xarici hüquqi şəxslərin filial və nümayəndəlikləri vasitəsilə iş icazəsi aldıqdan sonra Azərbaycan Respublikasında işləyə bilər.

Bildirilib ki, "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən və "Yaşayış yeri və olduğu yer üzrə qeydiyyat haqqında" "Azərbaycan Respublikasının Qanununun tətbiqi haqqında Əsasnamə"yə edilmiş dəyişikliyə görə, 1 aprel 2013-cü il tarixdən Azərbaycan Respublikasına 3 gündən artıq müddətə gələn əcnəbilər və vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar. Bunun üçün əcnəbi və ya vətəndaşlığı olmayan şəxs mehmanxanaya, sanatoriyaya, istirahət evinə, pansionata, kempinqə, turist bazasına, xəstəxanaya, digər belə ictimai yerə, mənzilə, başqa yaşayış sahəsinə gəldikdə həmin yerin müdiriyyəti və ya yaşayış sahəsinin sahibi 3 gün ərzində əcnəbinin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və həmin şəxsin pasportunun surətini poçt, elektron poçt (**miqrasiya@nakhcivan.az**) vasitəsi ilə və ya şəxsən Naxçıvan Muxtar Respublikası Dövlət Miqrasiya Xidmətinə təqdim etməlidir.

Vurğulanıb ki, əcnəbinin olduğu yer üzrə qeydiyyata alınması üçün dövlət rüsumu ödənilmir. Əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər Azərbaycan Respublikasında olma və yaşama qaydalarını pozmalarına görə Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin müvafiq maddələrinə uyğun olaraq, Azərbaycan Respublikası hüdudlarından inzibati qaydada kənara çıxarılmaqla və ya çıxarılmamaqla 300 manatdan 400 manatadək cərimə olunurlar. Bu baxımdan işəgötürənlər də böyük məsuliyyət daşıyırlar.

Sonra tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

✍ **Muxtar MƏMMƏDOV**

## Uşaqlar arasında keçirilmiş müsabiqələrə yekun vurulub

*Naxçıvan Muxtar Respublikasının 90 illiyi ilə əlaqədar "Naxçıvanım mənim" mövzusunda Naxçıvan şəhərində fəaliyyət göstərən məktəbəqədər təhsil müəssisələrinin uşaqları arasında və sağlamlıq imkanları məhdud uşaqlar arasında keçirilmiş rəsm, əl işləri, musiqi müsabiqələrinin və şahmat yarışının dünən yekun tədbiri olmuşdur.*



Tədbirdə Naxçıvan Muxtar Respublikasının təhsil naziri Piri Nağıyevin, əmək və əhalinin sosial müdafiəsi naziri Cavid Səfərovun, Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Ramilə Seyidovanın çıxışları olmuşdur. Çıxışlarda bildirilmişdir ki, uşaqların sağlam, ağıllı, təhsilli, ölkəmizə və müstəqilliyimizə sədaqətli, vətənpərvər vətəndaşlar kimi yetişməsi istər ailə, istərsə də dövlət üçün vacib amillərdən biridir.

Vurğulanmışdır ki, bu gün də ölkəmizdə uşaq və yeniyetmələrə göstərilən diqqət və qayğı dövlət siyasətinin prioritet istiqamətlərindən biridir. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da dövlət uşaq siyasəti uğurla həyata keçirilir, onların sağlam ruhda tərbiyə olunmaları, təhsil almaları üçün hərtərəfli şərait yaradılır. Bu məqsədlə yeni məktəbəqədər tərbiyə müəssisələri tikilərək istifadəyə verilir, onların maddi-texniki bazası möhkəmləndirilir. Son illərdə muxtar respublikamızda neçə-neçə uşaq bağçası, musiqi, şahmat məktəbi binalarının inşa olunaraq istifadəyə verilməsi dövlətimizin böyüməkdə olan nəslə göstərdiyi diqqət və qayğısının parlaq ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında sağlamlıq imkanları məhdud uşaqların təhsilə cəlbi üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin icrası istiqamətində keçirilən müsabiqə bu qəbildən olan uşaqların istedad və bacarıqlarının üzə çıxarılmasında, onların gələcəkdə cəmiyyətə inteqrasiya olunmalarında mühüm əhəmiyyət kəsb edən tədbirlərdən biridir.

Sonra ayrı-ayrı nominasiyalar üzrə keçirilmiş müsabiqələrin qalibləri elan olunmuşdur.

Bağça uşaqları arasında keçirilən müsabiqədə birinci yerə 3 nömrəli, ikinci yerə 7 və 11 nömrəli, üçüncü yerə 4 və 5 nömrəli bağçaların uşaqları layiq görülmüşlər. Musiqi, şahmat, rəsm və əl işləri üzrə keçirilən müsabiqələrin də qalibləri elan edilmişdir. Qaliblərə hədiyyələr təqdim olunmuşdur.

Sonda məktəbəqədər müəssisələrin balaca fidanları konsert proqramı ilə çıxış etmişlər.

✍ **Sona MİRZƏYEVA**

## Prokurorluq orqanları hüquqi maarifləndirmə tədbirlərini davam etdirir

***Mayın 27-də Culfa Rayon Prokurorluğunun təşkilatçılığı ilə rayonun Yaycı kəndində elektrik enerjisindən və təbii qazdan düzgün istifadə qaydalarına, həmçinin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən, tikintisinə icazə tələb olunan və tələb olunmayan tikinti obyektlərinə həsr olunmuş maarifləndirici tədbir keçirilmişdir.***

Tədbirdə Culfa rayon prokuroru, baş ədliyyə müşaviri Əli Adıgözəlov "Təbii qazdan və elektrik enerjisindən qanunsuz istifadəyə görə cinayət və inzibati məsuliyyət" mövzusunda məruzə ilə çıxış etmişdir. Qeyd olunmuşdur ki, böyük dövlət qayğısı nəticəsində muxtar respublikamızda əhali fasiləsiz elektrik enerjisi və təbii qazla tam təmin olunmuşdur. Hazırda qarşıda duran başlıca vəzifə enerji resurslarından səmərəli istifadə olunmasından ibarətdir. Ona görə də hər bir idarə, müəssisə və təşkilat, eləcə də hər bir vətəndaş elektrik enerjisindən və təbii qazdan səmərəli istifadə etməli, israfçılığa, qanunsuz istifadə hallarına qətiyyən yol verməməlidir.

"Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin mülkiyyət əleyhinə olan cinayətlər fəslinə yeni maddə – "Təbii qazın, elektrik və ya istilik enerjisinin talanması" maddəsi əlavə edilməklə cinayət qanunvericiliyində bir sıra əməllər cinayət kimi təsbit edilmişdir", – deyən Əli Adıgözəlov qanunsuz istifadə halları ilə əlaqədar Cinayət Məcəlləsindəki maddələr barədə sakinlərə ətraflı məlumat vermişdir.

Sonra Culfa rayon prokurorunun köməkçisi Xalid Ağayev tikintisinə icazə tələb olunan və tələb olunmayan obyektlər haqqında çıxış edərək bildirmişdir ki, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsi 29 iyun 2012-ci il tarixli Qanunla təsdiq edilmiş və 2013-cü il yanvarın 1-dən qüvvəyə minmişdir. Həmin məcəllənin şəhərsalma və tikinti qanunvericiliyinin təyinatı adlanan 1-ci maddəsinin tələbinə əsasən, Azərbaycan Respublikasının şəhərsalma və tikinti qanunvericiliyi şəhərsalma və tikinti fəaliyyətinin hüquqi əsaslarını, prinsiplərini, eləcə də dövlətin, bələdiyyələrin, fiziki və ya hüquqi şəxslərin şəhərsalma və tikinti fəaliyyəti sahəsində hüquq və vəzifələrini müəyyən edir.

Məcəllənin 75, 79 və 80-ci maddələrində tikintisinə icazə tələb olunan və tələb olunmayan tikinti obyektlərinin tikintisinin aparılması qaydaları və tikintiyə başlamaq üçün məlumatlandırma icraatının qaydaları öz əksini tapmışdır.

Sonda tədbir iştirakçılarını maraqlandıran suallar cavablandırılmışdır.

✍ **Kərəm HƏSƏNOV**

## Tarixi abidələrə və muzeylərə ekskursiya

***1 iyun – Uşaqları Beynəlxalq Müdafiə Günü münasibətilə Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə sağlamlıq imkanları məhdud, hər iki valideynini itirmiş və ya valideyn himayəsindən məhrum olmuş, həmçinin aztəminatlı ailələrin uşaqlarının tarixi abidələrə və muzeylərə ekskursiyaları təşkil olunmuşdur.***

Ekskursiya iştirakçıları əvvəlcə Naxçıvan Dövlət Tarix Muzeyində olmuş, 50 minə yaxın eksponatın mühafizə olunduğu muzeydə Naxçıvan Muxtar Respublikası ərazisində aparılmış arxeoloji qazıntılar zamanı aşkara çıxarılmış maddi-mədəniyyət, tətbiqi sənət nümunələri, qədim numizmatika materialları, milli geyimlər, bədii tikmə nümunələri və xalça məmulatları, həmçinin qiymətli metallardan hazırlanmış zinət, məişət əşyaları ilə tanış olmuşlar.

Heydər Əliyev Muzeyi ilə tanışlıq zamanı uşaqlara bildirilmişdir ki, muzey 1999-cu ildə yaradılmışdır. Muzeydə ümummilli lider Heydər Əliyevə məxsus şəxsi əşyalar saxlanılır, ulu öndərimizin həyatının müxtəlif dövrlərinə həsr olunmuş stendlər yaradılmış, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrə aid sənəd və materiallar, məktub, qərar və sərəncamlar toplanmışdır. Ümumilikdə, muzeydə 4255 eksponat var.

Ekskursiya iştirakçıları Naxçıvan Muxtar Respublikası Duzdağ Fizioterapiya Mərkəzi, Möminə xatın türbəsi, Açıq Səma Altında Muzey, "Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksində də olmuşlar.

Sonda ekskursiyada iştirak edənlər Naxçıvan Dövlət Film Fondunda "Biz qayıdacağıq" filminə baxmış, onlara hədiyyələr təqdim olunmuşdur.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

## Məktəblilərimiz respublika çempionatını ikinci pillədə başa vurublar

*Mayın 21-də start verilən futbol üzrə 9-cu sinif şagirdlərinin respublika çempionatına yekun vurulub.*

Ölkənin 2300 məktəbinin mübarizə apardığı turnirdə Naxçıvan Muxtar Respublikası Şərur şəhərindəki 2 nömrəli tam orta məktəblə təmsil olunub. Belə ki, zona yarışlarının qalibi olan 2 nömrəli tam orta məktəb Bakıda keçirilən final mərhələsinə vəsiqə qazanmışdı. Bu mərhələdə isə şərurlu məktəblilər daha inamla çıxış edərək çempionatda hamının diqqətini cəlb edə biliblər. 16 orta məktəbin mübarizə apardığı çempionatda Şərur komandası baş məşqçi Bilal Nağıyevin rəhbərliyi ilə finalda oynamaq hüququ qazanıb. Rəqib isə Sumqayıt məktəbliləri olub. "Bayıl Arena"da keçirilən final görüşündə şərurlu məktəblilər sumqayıtlı həmkarlarına 0:2 hesabı ilə məğlub olublar və çempionatı ikinci pillədə başa vurublar.

✍ **Ceyhun MƏMMƏDOV**

*Naxçıvan Özəl Universitetində ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə və Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş Tələbə Elmi Cəmiyyətinin xətti ilə yerinə yetirilən tələbə elmi-tədqiqat işlərinin yekunları ilə bağlı konfrans keçirilmişdir.*

## Ali təhsil ocağında yekun konfransı

Konfransı giriş sözü ilə universitetin tədris və elmi işlər üzrə prorektoru, tarix üzrə fəlsəfə doktoru, dosent İbrahim Kazımbəyli açaraq bildirmişdir ki, Tələbə Elmi Cəmiyyəti sabahın gənc tədqiqatçılarının həqiqi axtarış və yaradıcılıq məktəbi olub, istedadlı və bacarıqlı tələbələrin üzə çıxarılmasında mühüm rol oynayır.

Plenar iclasda universitetin tarix müəllimliyi ixtisasının IV kurs tələbəsi Nurlan Quliyevin "Ulu öndər Heydər Əliyev və müasir Azərbaycanın xarici siyasəti", xarici dil müəllimliyi ixtisasının II kurs tələbəsi Şəlalə Cəfərlinin "İngilis dilində qarışıq salınan sözlər", mühasibat uçotu ixtisasının II kurs tələbəsi Gülnarə Seyidovanın "Yeni standartlar əsasında tərtib edilən mühasibat balansı və onun bölmələri" mövzularında hazırladıqları elmi-tədqiqat işləri konfrans iştirakçıları tərəfindən maraqla qarşılanmışdır.

Konfrans öz işini "Pedaqogika və psixologiya" ,"Azərbaycan dili və ədəbiyyat", "Humanitar elmlər", "İqtisadiyyat", "Xarici dillər", "Təbiət elmləri" olmaqla, 6 bölmədə davam etdirmişdir.

**Nuray ƏSGƏROVA**

## Hərbi Liseyin kursantları birinci oldular

***Ümummilli lider Heydər Əliyevin anadan olmasının 91-ci ildönümünə həsr olunmuş ali və orta ixtisas məktəbləri tələbələri arasında Hava və Ekstremal İdman Növləri Federasiyasının klubları arasında Əlincəqalasına yürüş üzrə Naxçıvan Muxtar Respublika turniri keçirilib.***

Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyi ilə Hava və Ekstremal İdman Növləri Federasiyasının birgə təşkil etdiyi turnirdə 200-dən artıq idmançı iştirak edib.

Yarışdan əvvəl Naxçıvan Muxtar Respublikasının gənclər və idman naziri Azad Cabbarov, Hava və Ekstremal İdman Növləri Federasiyasının sədri Hafiz Yaqubov idmançılara uğurlar arzulayıblar.

Yürüşdə daha yaxşı nəticəni Heydər Əliyev adına Hərbi Liseyin kursantları əldə ediblər. Onlar bütün rəqiblərini qabaqlayaraq turnirin baş mükafatını qazanıblar. Naxçıvan Dövlət Universitetinin tələbələri ikinci, Culfa rayonunun komandası isə yürüşü üçüncü pillədə başa vurublar.

Sonda nazirlik və federasiya tərəfindən qalib komandalara diplom və qiymətli hədiyyələr verilib.

**ŞƏRQ qapısı**

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhcivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Əli Cabbarov

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 4020. Sifariş № 473